**AZƏRBAYCAN RESPUBLİKASI**
**SƏHİYYƏ NAZİRLİYİ ƏZİZ ƏLİYEV ADINA**
**AZƏRBAYCAN DÖVLƏT HƏKİMLƏRİ**
**TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTU**

# ƏZİZ MƏMMƏDKƏRİM oğlu ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ ELMİ-PRAKTİKİ KONFRANSIN

# M Ə C M U Ə S İ

**BAKI – 2025**

# REDAKSİYA ŞURASI:

Professor N.A. Qasımov

Dosent M.T.Meybəliyev

Dosent T.H.Eyvazov

Dosent Z.M.Quliyeva

Dosent L.B.Bəxtiyarova

Dosent A.Z.Əfəndiyev

Professor R.K.Şirəliyeva

Professor T.A.Qafarov

# ƏZİZ MƏMMƏDKƏRİM OĞLU ƏLİYEV

Xalqımızın şərəfli tarixində Vətəninə, xalqına sadiq olan şəxslər arasında Azərbaycanın dövlət xadimi, səhiyyənin və tibb elminin görkəmli təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin xüsusi yeri var. Əzəmətli təbib, təşkilatçı, həkim-tədqiqatçı, pedaqoq, maarifçi kimi xüsussiyətlər bu gözəl və səmimi insana məxsus idi.

Əziz Əliyev 1897-ci il yanvar ayının 1-də qədim Azərbaycan torpağının İrəvan quberniyasında anadan olmuşdur. Atası Məmmədkərim Kərbəlayi Qurbanəli oğlu kənd işləri ilə məşğul idi, bəy nəslindən olan anası Zəhra xanım isə evdar qadın idi.

Əziz Əliyev ibtidai təhsilini rus-tatar məktəbində aldıqdan sonra İrəvandakı gimnaziyaya daxil olur və oranı 1917-ci ildə bütün fənlər üzrə əla qiymətlərlə bitirir.Elə həmin il o, Bakı milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi ilə Sankt-Peterburqa gedir və tələbkar alimlərin iştirakı ilə aparılan müsabiqədən müvəffəqiyyətlə keçərək Rusiyanın ən qabaqcıl ali tibb müəssisələrindən sayılan Hərbi Tibb Akademiyasına daxil olur.

Əziz Əliyev 1918-ci il iyun ayında yay tətilini evlərində keçirmək üçün İrəvana gəlir və burada dəhşətli mənzərə ilə üzləşir.Həm atasının bir neçə ay əvvəl dünyasını dəyişməsi, həm də erməni daşnaklarının törətdikləri qanlı cinayətlər onu sarsıdır. Çox böyük çətinliklə anası və qardaşını əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edən İrəvandan Naxçıvanın Şərur rayonuna keçirdə bilirvə onlar Şahtaxtı kəndinə gedirlər. Ailənin ağır vəziyyəti və ermənilərin törətdikləri qırğınların fəlakətli nəticələri Əziz Əliyevi Sankt-Peterburqa qayıtmaq, təhsilini davam etdirmək imkanından məhrum edir. Ancaq 1920-ci ilin may ayında İrəvanda məskən salmış daşnak qoşunları şimaldan gələn bolşevik havadarlarının birbaşa dəstəyi ilə silahlı

hücuma keçərək Şərur rayonunu, o cümlədən Şahtaxtı kəndini yerlə yeksan edərək amansız qırğınlar törədirlər.Qanlı qırğından salamat çıxa bilən və didərgin düşən Şahtaxtı əhalisi, o cümlədən Əziz Əliyevin ailəsi erməni zülmünə tab gətirməyərək Arazı keçir və Cənubi Azərbaycanın Ərəblər kəndində daldalanırlar. Ə.Əliyev tibbi xidmətini burada da davam etdirir və həkim köməkçisi kimi çalışaraq əhaliyə lazımi yardımlar göstərir.

Anası 1920-ci ildə Ərəblər kəndində vəfat edir. 1921-ci ilin iyun ayında onlar, nəhayət, Şahtaxtı kəndinə qayıda bilirlər və Əziz Əliyev 1923-cü ilin may ayına qədər kənddə orta tibb işçisi, həkim köməkçisi kimi çalışır.

1923-cü ilin mayında Əziz Əliyev Bakıya köçür. Bu andan etibarən onun həyatının yeni mərhələsi başlanır. Bakıda ilk vaxtlar Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, həmin idarənin ümumi şöbə müdirinin müavini, katibin müavini və nəhayət, Respublika Xalq Komissarlığı Şurasının katibi vəzifəsini icra edir. O, bu çətin və məsuliyyətli vəzifələrdə çalışmaqla yanaşı yarımçıq qalmış ali tibb təhsilini Bakı Dövlət Universitetinin tibb fakültəsində 1927-ci ildə böyük uğurla başa çatdırır və daxili xəstəliklər kafedrasında ordinator vəzifəsinə qəbul edilir. Əziz Əliyev sonralar həmin kafedrada aspirant, assistent və dosent kimi fəaliyyət göstərir və 1929-cu ildə Azərbaycan Klinik İnstitutun, o institut ki, sonralar (1935-ci ildə) Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu adı ilə fəaliyyət göstərir, rektoru vəzifəsinə təyin olunur.O,bu vəzifədə 1932-ci ilə qədər çalışır.

Əziz Əliyev İkinci Dünya müharibəsindən həm əvvəlki, həm də sonrakı illərdə Azərbaycanda səhiyyənin təşkili məsələsinə xüsusi diqqət yetirmişdir. O, Xalq Səhiyyə Komissarlığı müalicə şöbəsinin müdiri, Bakı səhiyyə şöbəsinin müdiri, Xalq Səhiyyə Komissarlığında müavin, xalq səhiyyə komissarı və digər vəzifələrdə çalışarkən Respublikanın bütün rayonlarını

qarış-qarış gəzmiş, bu sahədə problemlərin aradan qaldırılması üçün əməli tədbirlər görmüşdür. Həm özünə, həm də başqalarına qarşı son dərəcə tələbkar olan Əziz Əliyev bütün həyatı boyu ölkəmizdə tibb elminin inkişafına, yüksək ixtisaslı kadrların hazırlanmasına çalışmış və həmişə də istəyinə nail olmuşdur.

Görkəmli alimin həyatının Azərbaycan Dövlət Tibb İnstitutu ilə bağlı parlaq səhifələri Respublikanın tibb ictimaiyyəti, səhiyyə işçiləri, professor-müəllim heyəti və tələbə kollektivi üçün nümunə olacaq böyük bir ömür yoludur. 1930-cu il iyun ayının 19-da Bakı Dövlət Universitetinin tibb fakültəsinin bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutunun yaradılması və bundan sonrakı çətin mərhələlərdə instituta rəhbərlik etmək böyük cəsarət tələb edirdi. Əziz Əliyev bu illərdə Tibb İnstitutunun yaradılmasının təşkilati işlərinin yerinə yetirilməsində mühüm rol oynayan əsas simalardan biri olmuş və 1932-ci il iyunun 1-dən etibarən həmin institutun rektoru vəzifəsinə təyin olunmuşdur. Həmin illərdə bir tərəfdən Respublikada yüksək ixtisaslı həkimlərin hazırlanmasına ciddi ehtiyac duyulması, digər tərəfdən də onların hazırlığını təmin edə bilən kadr çatışmazlığı, Azərbaycan dilində tibbin bütün sahələri üzrə dərslik və dərs vəsaitlərinin yoxluğu, tədris bazalarının zəifliyi, kitab fondunun lazımi səviyyədə olmaması, institutun özünün nəşriyyatının yoxluğu və digər məsələlər təhsil ocağının rektorunun işinə böyük maneələr törədirdi. Bu problemlərin aradan qaldırılması üçün o rahatlıq bilmədən çalışmış və həmin dövrdə Tibb İnstitutu bir ali təhsil ocağı kimi formalaşmışdır.

O, azərbaycanlı kadrları işə cəlb edərək onların fəaliyyət dairəsini genişləndirmiş və ana dilində dərsliklər, dərs vəsaitləri, monoqrafiya və tövsiyələr yazılmasına nail olmuşdur. Beləki, 1932-1935-ci illər ərzində Əziz Əliyevin rəhbərliyi altında əməkdaşlar tərəfindən Azərbaycan dilində latın qrafikası ilə 45 adda dərslik və dərs vəsaiti tərtib edilərək tibb təhsili alan

tələbələrin ixtiyarına verilmişdir. Bu, o dövrün texniki imkanları üçün çox böyük göstərici idi. Ümumiyyətlə, 1930-1945-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun əməkdaşları tərəfindən 80 adda dərslik və dərs vəsaiti nəşr olunub ki, onun da 55-i Əziz Əliyevin instituta rəhbərlik etdiyi 5 il ərzindəki yaradıcı və məhsuldar dövrə təsadüf edir.

Professor Ə.Əliyev Azərbaycan Tibb Universitetinin əsaslı kitabxanasının təşkilatçısı və yaradıcısıdır. Onun qurduğu tibbi kitabxana unikal kitabxanaya çevrilmiş və ehtiyacı olanların hamısı istədiyi vaxt kitabxana fondundan istifadə edə bilmişlər. Əziz Əliyevin rəhbərliyi ilə institutda "Tibb nəşriyyatı" yaradılmış, onun təşəbbüsü ilə "Praktiki və nəzəri tibb jurnalı"nın nəşri əsaslı surətdə təkmilləşdirilmişdir. 1933-cü ildə o, həmin jurnalın baş redaktoru təyin edilmişdir. 1933-cü ildə Əziz Əliyevin təşəbbüsü ilə Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin çapı qaydaya salındı. Hazırda bu qəzet "Təbib" adı ilə Azərbaycan Tibb Universitetində çap olunmaqdadır.

Ə.Əliyev hansı ictimai, inzibati, təşkilati işdə çalışsa da, elmi axtarışlarını bir an belə dayandırmadı. O, institutu bitirəndən iki il sonra 1929-cu ildə namizədlik, 5 il sonra isə doktorluq dissertasiyasını müdafiə etdi. Əziz Əliyevin doktorluq dissertasiyası Azərbaycanda ilk dəfə olaraq SSRİ Elmlər Akademiyasının, Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin mükafatına layiq görülən dəyərli elmi iş idi. Əziz Əliyev 1941-ci il mayın 13-də Azərbaycan SSR xalq səhiyyə komissarı işləyərkən SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının rəyasət heyəti nəzdində təşkil edilmiş elmi şuranın üzvü seçilmişdir.1956-cı ildə ona professor elmi adı verilmişdir. Əziz Əliyevin Tibb İnstitutuna rəhbərlik etdiyi dövrdə 11 doktorluq və xeyli namizədlik dissertasiyası müdafiə edilmişdir. Professorun təşəbbüsü ilə kafedraların nəzdində təsis edilmiş aspiranturada 4 il ərzində 30 tibb elmləri namizədi hazırlanmışdır. Onlardan 19-u milli kadr

olub. O, tibb sahəsi üzrə milli kadr hazırlığını daim ön plana çəkmiş və onların yetişməsində müstəsna rol oynamışdır. Ə.Əliyev hər il Tibb İnstitutunun son kurs tələbələrindən ən bacarıqlılarını Moskvanın və Sankt-Peterburqun məşhur ali tibb məktəblərinə ezam edərək onlara təcrübə toplamaları üçün əlverişli şərait yaratmışdır.

1933-cü ildə Əziz Əliyevin təklifi, təşəbbüsü və bilavasitə iştirakı ilə "Tibb şəhərciyi"nin inşasına başlanıldı. Sonralar həmin şəhərcikdə tələbə yataqxanaları ilə birlikdə nəzəri kafedralar üçün tədris korpusları da tikildi və bu iş ulu öndər Heydər Əliyevin ölkəmizə başçılıq etdiyi dövrdə uğurla başa çatdırıldı.

Əziz Əliyev İkinci Dünya müharibəsi illərində alay polkovniki rütbəsində sovet əsgərləri ilə birlikdə siyasi rəhbər kimi Cənubi Azərbaycana ezam olunmuşdu. Orada o, yerli əhali ilə yaxından ünsiyyət yaradaraq onlara ortaq dəyərləri çatdirmış, ordu ilə əhali arasında əlaqələri təmin etmişdir.

Əziz Əliyev 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə isə Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışaraq özünü bacarıqlı dövlət xadimi kimi də göstərmişdir. Dağıstanda işləyərkən Dağıstan zəhmətkeşləri Əziz Əliyevə üzərində onun əksi həkk olunan xüsusi medalyon bağışlamışlar və bunu xalq məhəbbətindən doğan ali duyğuların təntənəsinin bariz nümunəsi kimi qeyd etmək oıar. Həmin medalyon Azərbaycan Tarixi muzeyində saxlanılır.

Əziz Əliyev 1949-1950-ci illərdə Moskvada Kommunist Partiyası Mərkəzi Komitəsinin inspektoru, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru vəzifələrində işləmişdir.1956-cı ildə Əziz Əliyev Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru olmuşdur. İnstitutun tarixinin bir çox şanlı

səhifələri  onun adı ilə bağlıdır. Onun rəhbərliyi dövründə institutun kafedralarının Bakının iri xəstəxanalarında yerləşdirilməsi nəticəsində elmlə təcrübənin vahid istiqamətdə fəaliyyəti təmin edilmiş və həmin kafedralar respublika əhalisinə yüksək səviyyəli ixtisaslı yardımgöstərən mərkəzlərə çevrilmişlər. Bu dövrdə institutun kafedra və laboratoriyaları genişləndirilmiş, maddi-texniki bazası möhkəmləndirilmişdir. 1950-ci ilin sonundan başlayaraq, institut SSRİ tərkibində olan respublikaların tələbatına və sifarişinə əsasən, ali təhsilli tibb kadrlarının təkmilləşdirilməsi və ixtisaslaşmasını həyata keçirməklə yanaşı, Bolqarıstan, Monqolustan, İran, Türkiyə və Yəmən kimi ölkələr üçün də təbabətin müxtəlif sahələri üzrə həkimlərin hazırlanmasını həyata keçirmişdir.Artıq 1960-cı ildə institutda 16 tibb elmləri doktoru, professor, 17dosent və 27-i tibb elmləri namizədi olmaqla 58 assistent fəaliyyət göstərirdi. Ə.Əliyevin rəhbərliyi dövründə maddi çətinliklərə baxmayaraq 621 elmi-tədqiqat işi yerinə yetirilir və onların sayı 488 məqalədə öz əksini tapır. Aparılmış elmi-tədqiqat işlərinin nəticələri əsasında institut əməkdaşları tərəfindən 14 monoqrafiya çap olunur, təkcə 1960-cı ildə 6 doktorluq və 42 namizədlik dissertasiyaları müdafiə olunur. Eyni zamanda İnstitut kitabxanasının fondları 10 il ərzində 2 dəfədən çox artırılaraq təxminən 33 min nüsxəyə çatdırılır, ayrılan büdcə vəsaitlərinin bu dövr ərzində 4 mln rubldan 5,5 mln rubla çatdırılır.

Əziz Əliyevin vətən və xalq qarşısındakı misilsiz xidmətləri görkəmli həkim və alim, əla səhiyyə təşkilatçısı və səriştəli rəhbər və təcrübəli dövlət xadimi kimi yüksək qiymətləndirilmişdir. O, iki dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni, I dərəcəli Vətən müharibəsi ordeni, "Səhiyyə əlaçısı" döş nişanı, bir çox medallar və çoxsaylı fəxri fərmanlarla təltif edilmişdir.1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR əməkdar həkimi" fəxri adı verilmişdir. Rektor kimi fəaliyyət göstərdiyi Azərbaycan Dövlət

Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakının mərkəzi küçələrindən biri, Mahaçqalada bir küçə bu görkəmli dövlət və elm xadiminin adını daşıyır. Ə.Əliyev I-II çağırış SSRİ Ali Sovetinin deputatı seçilmiş, həmçinin Azərbaycan SSR Ali Sovetinin I-III çağırış, Dağıstan MSSR Ali Sovetinin II çağırış deputatı olmuşdur.

1998-ci il may ayının 14-də dövlət səviyyəsində Əziz Əliyevin anadan olmasının 100 illik yubileyi keçirilərkən yubiley təntənələrində çıxış edən ümummilli liderimiz Heydər Əliyev Əziz Əliyevin zəngin həyat yolunun və dəyərli yaradıcılığının bizə məlum olmayan məqamlarının incəliklərindən ətraflı söhbət açmışdı. XX əsrin 30-cu illərinin ağır repressiya illərində Azərbaycanda milli həkim kadrlarının böyük bir dəstəsini səbəbsiz işgəncələrdən, vaxtsız ölümdən xilas etmiş Əziz Əliyevin özü 50-ci illərin əvvəllərində haqsız olaraq təqiblərə məruz qalmışdır. Bu haqda danışarkən ulu öndər demişdir: "Əziz Əliyev mənə danışırdı ki, o, 1938-ci il repressiyalarından möcüzə nəticəsində xilas olmuşdur. Onu sonralar, 50-ci illərin əvvəllərində repressiya etdilər. İşdən çıxarıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin etdilər, amma tezliklə bu vəzifədən də çıxartdılar. Professoru, elmlər doktorunu, bu qədər xidmətləri olan bir insanı Sabunçu xəstəxanasına adi həkim göndərdilər və o, üç il orada işlədi. Lakin xoşbəxtlikdən bu uzun sürmədi və o yenidən öz layiqli qiymətini aldı, onun əvvəlki şan-şöhrəti özünə qaytarıldı". Heydər Əliyev öz çıxışına davam edərək Əziz Əliyevin alimə xas olan xüsusiyyətlərin incəliklərinə yaxşı bələd olduğunu söyləmiş və onun insani keyfiyyətlərindən də danışmışdır: "Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə sıx təmasda olurdu. Bütün tibb professorları onun dostları idi, onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm,

Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimlərilə onun çox yaxın, mehriban, ailəvi münasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yüksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı. Həmin adamlar da onunla yaxın olmaq istəyirdilər. O, hər cəhətdən gözəl insan idi".

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin Əziz Məmmədkərim oğlu Əliyevin 120 illiyinin təntənəli qeyd olunması barədə sərəncamı institutumuzun əməkdaşları, respublikamızın ziyalıları, tibb cəmiyyəti, xalqımız tərəfindən böyük şöhrət, fərəh və minnətdarlıq hissi ilə qarşılanmışdır.

Əziz Məmmədkərim oğlu Əliyev yüksək rəhbərlik qabiliyyətinə malik, prinsipial, çox məsuliyyətli, tabeliyində olan işçilərə qarşı daim xoş münasibətdə olan, sözün əsil mənasında böyük dövlət və səhiyyə təşkilatçısı, görkəmli bir şəxsiyyət kimi qalmışdır. Onun kimi oğullar dünyaya hər zaman gəlmir. Onun kimi oğullar Azərbaycanı yaşadır. Onun kimi oğullar Azərbaycanı yaşadır və daim yaşadacaqdır!

**Əziz Əliyev adına Azərbaycan**
**Dövlət Həkimləri Təkmilləşdirmə**
**İnstitutunun Rektoru, professor** **N.A.QASIMOV**

# PHYSICAL REHABILITATION OF CHILDREN WITH AUTISM

**Burdina Viktoriia Romanivna**[1],
**Meibaliev Mammadali Talyat oglu**[2]
**Danylchenko Svitlana Ivanivna**[1]

[1]*Kherson State University, Kherson-Ivano-Frankivsk, Ukraine*
[2]*Azerbaijan State Institute of Advanced Medical Education named after A.Aliyev, Baku, Azerbaijan*

**Keywords:** autism, physical rehabilitation, children, kinesiotherapy, sensory integration, hydrotherapy, bobat therapy, yoga and relaxation techniques, play therapy, group classes.

**Introduction.** Autism, or autism spectrum disorders (ASD), is a developmental disorder characterized by deficits in social communication, restricted interests, and repetitive patterns of behavior. Children with autism often also have difficulties with motor development, coordination, sensory integration and physical activity. Physical rehabilitation is an important component of a comprehensive approach to correcting the condition of these children. The correct use of physical exercises and other methods of rehabilitation helps to improve the quality of their life, promotes the development of motor and cognitive skills, as well as socialization.

**The purpose of this study** is to analyze the effectiveness of methods of physical rehabilitation of children with autism, to determine the basic principles of working with this category of patients, and to develop recommendations for improving the physical and psychosocial condition of such children.

Children with autism spectrum disorders need not only the acquisition of knowledge and skills, as their development and system of meanings have significant impairments. This creates difficulties in the practical application of acquired skills. In such

a situation, adaptive physical education should focus on the conscious interaction of autistic children with the environment. Special attention is paid to the acquisition of household skills, the development of gross and fine motor skills, as well as the mastering of basic subject actions.

**Basic principles of rehabilitation.** Physical rehabilitation of children with autism is based on the following key points: early initiation of rehabilitation measures; patient-centeredness - an individual approach to each patient; gradual increase in loads; I used specialized exercises to learn important life skills.

Individual approach - each child with autism has unique developmental characteristics, so the rehabilitation program must take into account his needs, abilities and level of motor development.

Integration of physical exercises into everyday life - regular physical activity should become part of the child's daily activities.

Using positive reinforcement - encouragement and praise help children better accept new tasks and stay motivated.

An interdisciplinary approach - a team of specialists, including physiotherapists, speech therapists, psychologists and teachers, contributes to the creation of an effective rehabilitation program.

Socialization through physical activity - participation in group classes contributes to the development of communication skills.

**Methods of physical rehabilitation.** The main methods of physical rehabilitation of patients with ischemic stroke include:

- Kinesiotherapy, which is aimed at improving coordination of movements and balance with the help of special simulators or games.
- Sensory integration is working with different textures, surfaces and objects to improve a child's sensory response.
- Hydrotherapy aimed at reducing anxiety and stimulation sensory activity and development of coordination.

- Bobat therapy suppresses pathological movement patterns, stimulates correct "normal movements", normalizes muscle tone, and stimulates the perception of one's own body.
- Yoga and relaxation techniques for relaxation skills and working with proper breathing.
- Play therapy motivates the child and increases his participation in the process.
- Group classes develop social skills and increase self-esteem.

**Results.** Physical rehabilitation demonstrates a positive impact on the development of children with autism:

- Improvement of coordination, balance and general motor development.
- Reducing the level of anxiety and sensory overload.
- Increasing physical endurance and strength.
- Improving social interactions through group activities.
- Formation of self-care skills.

**Conclusions.** Physical rehabilitation is an important component of complex therapy for children with autism. The use of modern methods makes it possible to achieve significant progress in the development of motor, sensory and social skills. The individual approach and interdisciplinary work of specialists ensure optimal results, improve the quality of life of children and contribute to their integration into society. In the future, it is important to conduct research to improve rehabilitation methods and develop new approaches aimed at the comprehensive development of children with autism.

# MÜNDƏRİCAT:

**ƏZİZ MƏMMƏDKƏRİM OĞLU ƏLİYEV**.................................... 3

**Агаев Э.М., Маринченко Е.В., Надирова Н.Ч.**
ЭКОЛОГИЧЕСКИЕ РЕШЕНИЯ АСПЕКТОВ
ФАРМАЦЕВТИЧЕСКОЙ ИНДУСТРИИ........................................ 11

**Ağayev E.M., Marinçenko Y.V., Nadirova N.Ç.**
FARMAKONƏZARƏTİN MÜASİR ASPEKTLƏRİ........................ 14

**İsmayılov Q.M.**
GÖZ XƏSTƏLİKLƏRİNİN KOMORBİD TƏZAHÜRÜNÜN
YAYILMASI.................................................................................. 16

**А.А.Нуриева, Г.М.Мамедов, Ф.Дж.Насирова, М.М.Мурсалов, Ф.Ф.Сардарли, Ж.А.Акперова**
ОСНОВНЫЕ ЭТАПЫ РАЗВИТИЯ ЛУЧЕВОЙ ДИАГНОСТИКИ
В АЗЕРБАЙДЖАНЕ...................................................................... 24

**Исмайлов М.И., Бабаев Д.А., Кулиева Л.Х.**
ВЛИЯНИЕ ЛОКАЛЬНОЙ ИММУНОКОРРЕКЦИИ НА УРОВНИ
ЦИТОКИНОВ В СЛЮНЕ У БОЛЬНЫХ С ТЕРМИНАЛЬНОЙ
СТАДИЕЙ ХРОНИЧЕСКОЙ БОЛЕЗНИ ПОЧЕК ОСЛОЖ-
НЕННОЙ САХАРНЫМ ДИАБЕТОМ ВТОРОГО ТИПА............... 35

**Məmmədova N.Y., Məmmədova N.O., Ağayeva K.F., Qurbanova M.H.**
AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNDƏ İŞÇİLƏRİN
DAVAMLI VƏ MÜVƏQQƏTİ PEŞƏ YARARSIZLIĞININ YAŞ VƏ
ƏMƏK STAJINDAN ASILILIĞI...................................................... 37

**İsmayılova N.C.**
ERKƏN SÜDƏMƏR KÖRPƏLƏRDƏ SU-NİTRAT
ALİMENTAR METHEMOGLOBİNEMİYASI................................. 46

**A.S.İsmayılova, A.S.Abbasova, C.Q.Əliyev, Y.Ş.Şıxəliyev, E.N.Məmmədbəyov, L.H.Kazımova, X.S.Bədəlova**
İLKİN FƏAL VƏRƏMİN AMBULATOR MÜALİCƏNİN
EPİDEMİOLOJİ ASPEKTLƏRİ...................................................... 52

**A.S.Abbasova, A.S.İsmayılova, C.Q.Əliyev, Y.Ş.Şıxəliyev, E.N.Məmmədbəyov, L.H.Kazımova, X.S.Bədəlova**
VƏRƏMİN BAKTERİOLOJİ TƏSDİQ EDİLMƏSİNDƏ VƏ
EFFEKTLİ MÜALİCƏSİNDƏ BRONXİOLOJİ METODUN
ROLU............................................................................................ 55

**Hacıyeva N.M., Quliyev B.Z.**
MÜXTƏLİF MƏNŞƏLİ RETİNAL QASIZMA OLAN
XƏSTƏLƏRİN MÜALİCƏSİNDƏ TƏCRÜBƏMİZ......................... 58

**[1]Tağızadə R.K., [2]Mustafayeva X.F.**
ÇÖLYAK XƏSTƏLİYİNDƏ SPESİFİK UTOANTİCİSİMLƏRİN DİAQNOSTİK ƏHƏMİYYƏTİ........................................................ 60
**[1]Tagızadə R.K .[2]Sadıgov R.V. [2]Əhmədova L.M. [2]Nuşiyeva Ş.M. [2]Əliyeva M.K.**
NAFTALANIN MAKSİMAL QEYRİ-TOKSİK DOZALARININ TERAPEVTİK TƏSİRİNİN HÜCEYRƏ SƏVİYYƏSİNDƏ ÖYRƏNİLMƏSİ........................................................................ 63
**S.Q.Mehdizadə**
AZƏRBAYCANDA AĞCİYƏR XƏRÇƏNGİ DİAQNOZU TƏSDİQ EDİLMİŞ XƏSTƏLƏRDƏ ROS1 GENİNİN KLİNİK ƏHƏMİYYƏTİ.......................................................................... 66
**Tağızadə R.K., Hacıyeva G.K.**
İMMUNOFERMENT ANALİZİN MÜXTƏLİF VARİANTLARI İLƏ İMMUNKOMPROMETİV ŞƏXSLƏRİN ANKETLƏŞMƏ NƏTİCƏLƏRİNİN ƏLAQƏSİ .......................................................... 68
**Məmmədova A.E.**
TİROİD PATOLOGİYALARI ZAMANI RADİOAKTİV YOD MÜALİCƏSİNİN QLÜKOZA MÜBADİLƏSİNƏ TƏSİRİ................ 70
**F.V.Qılıncova[1], L.İ. Rüstəmova[2], R.K. Tağızadə [1] , D.Ə.Nəcəfova [1] .**
UŞAQLARDA ASTROVİRUSLU BAĞIRSAQ İNFEKSİYASI İLƏ XƏSTƏLƏNMƏNİN RİSKş QRUPU VƏ RİSK AMİLLƏRİ............ 72
**Тагизаде Р.К.[1], Мирзоев Г.М.[2], Рагимова Ш.Д.[3], Мамедова Р.С.[3], Амануллаева Х.В.[3]**
ИЗМЕНЕНИЕ ПАРАМЕТРОВ ЛОКАЛЬНОГО ИММУНИТЕТА В РАННЕМ ПЕРИОДЕ ПОСЛЕ ДЕНТАЛЬНОЙ ИМПЛАНТАЦИИ У ПАЦИЕНТОВ С РАЗЛИЧНЫМ УРОВНЕМ ВИТАМИНА Д........................................................................... 74
**Тагизаде Р.К.[1], Касумова С.Г.[2], Ахундова Ф.М.[1]**
РАСПРОСТРАНЕННОСТЬ АЭРОАЛЛЕРГЕНОВ СРЕДИ ЖИТЕЛЕЙ АЗЕРБАЙДЖАНА......................................................... 77
**Rüstəmova H.M., Hüseynov N.M.**
METİSİLLİNƏ DAVAMLI STAPHYLOCOCCUS AUREUSUN BURUN DAŞIYICILIĞININ TEZLİYİ VƏ RİSK FAKTORLARI.... 80
**Qasımova A.R.**
AĞIZ BOŞLUĞU SELİKLİ QİŞASI XƏSTƏLİKLƏRİNDƏ PSİXOEMOSİONAL VƏZİYYƏTLƏRDƏ SAĞLAM ÜNSİYYƏT MEYARLARI.......................................................................... 83
**Qafarova G.İ., Shirəliyeva R.K.,Sadıqova Z.M., Həsənov R.L., Əsədova Ü.Ə.,Quliyeva A.I.,Məmmədova M.N.,Məmmədova M.Y.**
LAFORA XƏSTƏLİYİ. KLİNİK HAL............................................... 86

**Fərəcova N.Y., Şirəliyeva R.K., Sadıqova Z.M., Həsənov R.L., Əsədova Ü.Ə.,Quliyeva A.I.,Məmmədova M.N.,Məmmədova M.Y.**
ALZHEİMER XƏSTƏLİYİNİN MÜALİCƏSİNDƏ KÖK HÜCEYRƏ METODUNUN İSTİFADƏ EDİLMƏSİ.......................... 88
**Ağazadə Ü.N., Şirəliyeva R.K., Sadıxova Z.M., Həsənov R.L., Əsədova Ü.Ə.,Quliyeva A.İ.,Məmmədova M.N.,Məmmədova M.Y.**
MİQRENİN PROFİLAKTİK MEDİKAMENTOZ MÜALİCƏSİNDƏ İNNOVASİYALAR............................................. 90
**Əsədov H.Ə., İbdullayeva Ş.Q.**
DODAQ – DAMAQ YARIQLARI OLAN XƏSTƏLƏRİN CƏRRAHİ MÜALİCƏSİ..................................................................... 92
**Vəfa Xanməmmədova, Cavid Əhmədbəyli**
DİŞ ƏTİ ÇƏKİLMƏLƏRİNİN TACA İSTİQAMƏTLƏNMİŞ DİLİM VƏ YUMŞAQ TOXUMA QREFTİ İLƏ BƏRPASİ................ 95
**Cavid Əhmədbəyli**
BİFOSFONATA BAĞLI ÇƏNƏ OSTEONEKROZUNA YANAŞMALARIN QİYMƏTLƏNDİRİLMƏSİ.................................. 97
**Rüstəmova H.M.**
METİSİLLİNƏ DAVAMLI STAPHYLOCOCCUS AUREUSUN BURUN DAŞIYICILIĞININ TEZLİYİ VƏ RİSK FAKTORLARI..... 99
**İsgəndərova S.İ.**
COVİD-19 PANDEMİYASININ ƏHALİNİN ÖLÜM RİSKİNƏ TƏSİRİNİN YAŞDAN ASILILIĞI ....................................................... 102
**Rəsulov A. R.**
AZƏRBAYCAN RESPUBLİKASI ƏLİLLƏRİN ÜQUQLARI HAQQINDA BMT-NİN KONVENSİYASİNIN TƏDBİQİ….........… 115
**Hüseynov N.M., Əfəndiyev A.Z., Quliyev M.D.**
ADENOİDEKTOMİYA ƏMƏLİYYATINDAN SONRA ADENOİD HİPERTROFİYASININ MÜQAYİSƏSİ............................................. 119
**E.Ə. Dadaşov, N.F. Mütəlibova**
"KULTİVASİYA OLUNMAYAN" PATOGENLƏRİN KULTİVASİYASINDA SİTOKİNLƏR MİKROB PROLİFERASİYASINI STİMULLAŞDIRAN AMİL KİMİ............... 121
**Ə.X.Kərimov, N.Ə.Əsgərov, F.Ə.Zeynalov, T.E.Hüseynov, Sevinc Seyran qızı**
EKSTRAHEPATİK ÖD YOLLARININ XƏRÇƏNGİNİN KLİNİKİ, DİAQNOSTİK VƏ MÜALİCƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ... 123
**İ.İ.Ələkbərov**
ÜRƏYİN STABİL İŞEMİK XƏSTƏLİYİNDƏN ƏZİYYƏT ÇƏKƏN PASİYENTLƏRİN AMBULATOR MÜŞAHİDƏNİN ƏSAS PRİNSİPLƏRİ...................................................................... 127

**V.İ.Əliyev, T.H.Eyvazov, A.R.Hüseynova, A.M.Nəcəfova**
ÇOX DƏRMANA REZISTENT GRAM-NEQATIV BAKTERIYALARDA MÜALICƏ...................................................... 130
**Fidan Şıxəliyeva, Cavid Əhmədbəyli**
DENTAL İMPLANT ƏTRAFI TOXUMALARIN İLTİHABİ XƏSTƏLİKLƏRİNİN KOMPLEKS MÜALİCƏSİNDƏ YARDIMCI TERAPİYANIN EFFEKTİVLİYİ........................................................ 134
**E.M.Hətəm zadə**
GƏNCƏ ŞƏHƏRİNDƏ ÜRƏYİN İŞEMİK XƏSTƏLİYİNDƏN ORTA SUTKALIQ ÖLÜM HALLARINA METEOROLOJİ ŞƏRAİTİN TƏSİRİ........................................................................... 136
**G.N.İsgəndərova**
AĞCİYƏRLƏRİN XRONİKİ OBSTRUKTİV XƏSTƏLİYİNİN İLK HƏLQƏ TİBBİ YARDIM SƏVİYYƏSİNDƏ DİAQNOSTİKASI...... 139
**Mehdiyev S.X.**
AZƏRBAYCANDA ŞƏKƏRLI DIABET TIP 2 XƏSTƏLƏRDƏ IRSI MEYLLIYIN KLINIKI-EPIDEMIOLOJI XÜSUSIYYƏTLƏRININ ÖYRƏNILMƏSI......................................... 141
**Mehdiyeva Z.F.**
PREEKLAMPSİYA İNKİŞAF RİSKİ OLAN HAMİLƏ QADIN-LARDA UŞAQLIQ ARTERİYALARIN NƏBZ İNDEKSİ VƏ PLASENTANIN BÖYÜMƏ FAKTORUNUN SƏVİYYƏSİ.............. 143
**М.Г.Гасанова, Ф.З.Сардарлы**
ОПЫТ ПРИМЕНЕНИЯ ФИТОПРЕПАРАТОВ В КОМПЛЕКС-НОМ ЛЕЧЕНИИ ОСТРОГО ГЕСТАЦИОННОГО ПИЕЛОНЕФРИТА........................................................................... 146
**[1]Mütəlibova N.F., [2]Quliyeva M.Z.**
SİDİK KATETERLƏRİ İLƏ ƏLAQƏLİ İNFEKSİYALARIN TÖRƏDİCİLƏRİNİN ANTİBİOTİKLƏRƏ QARŞI REZİSTENTLİYİ........................................................................... 154
**Qurbanova N.F., Abdıyeva Y.C., Məhərrəmova S.M.**
TOR QŞANIN MİKROSİRKULYASİYA POZĞUNLUQLARINDA KOMBİNƏ EDİLMİŞ MÜALİCƏNİN EFFEKTİVLİYİ..................... 157
**Hüseynov N.M., Quliyev M.D., Əfəndiyev A.Z.**
PEDIATRIK SEPTOPLASTIKA ƏMƏLİYYATINDA PIEZO ISTIFADƏSİ........................................................................... 159
**Qafarov T.Ə.**
PSİXİATRİYADA TRANSDİAQNOSTİK YANAŞMANIN ƏHƏMİYYƏTİ........................................................................... 161
**R.Y.Məmmədova, M.S.Qaraxanova, S.T.Vəliyeva, E.R.Zeynalova**
AZƏRBAYCANDA UŞAQLARIN SAĞLAMLIĞINA TƏSİR

EDƏN İQLİM DƏYİŞİKLİYİ VƏ ƏTRAF MÜHİT İLƏ BAĞLI TİBB İŞÇİLƏRİNİN BİLİK, BACARIQ VƏ DAVRANIŞIN ÖYRƏNİLMƏSİNƏ DAİR SORĞULARIN NƏTİCƏLƏRİ.............. 167
**Qasımov N.A., Əkbərova İ.K., Kazımov A.K., Əliyev T.M.**
ONİKİ BARMAQ BAĞIRSAĞIN ZƏDƏLƏNMƏSİ ZAMANI CƏRRAHİ MÜALİCƏNİN XÜSUSİYYƏTLƏRİ............................. 171
**Hətəm zadə E.M., Rəsul İ.T.**
ARTERİAL TƏZYİQİN SƏVİYYƏSİNDƏN ASILI OLARAQ QT INTERVALININ XÜSUSİYYƏTLƏRİ............................................ 173
**Ф.Э.Садыхова, Н.Ф.Муталибова, Э.А.Дадашев, С.Г.Керимов**
ИНДИКАЦИЯ БАКТЕРИАЛЬНО-ФАГОВОГО СИМБИОЗА В СТОЧНЫХ ВОДАХ.......................................................................... 176
**Сафарова С.С., Фаталиева Г.Р., Алиева И.Д., Шарифов Т.М.[1]**
ПРЕДИКТОРЫ ПРОГНОСТИЧЕСКОЙ МОДЕЛИ ДИАБЕТИЧЕСКОЙ ОСТЕОПАТИИ У МУЖЧИН......................... 178
**Хагверди Э.Р.**
ПСИХОПАТОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРОДУКТИВНЫХ СИНДРОМОВ ПРИ ШИЗОФРЕНИИ, РАЗВИВАЮЩЕЙСЯ В УСЛОВИЯХ ЗАТЯЖНОЙ ПСИХОТРАВМАТИЧЕСКОЙ СИТУАЦИИ............................................................................................ 180
**Qurbanova N.F., Abdıyeva Y.C., Məhərrəmova S.M.**
BİVOKSA– KONYUNKTİVANIN İLTİHABI XƏSTƏLİKLƏRİNİN MÜALİCƏSI.................................................. 193
**Исмаил М.Р.**
К ВОПРОСУ О ВЗАИМОСВЯЗИ ПАРОДОНТИТА И РЕМАТОИДНОГО АРТРИТА......................................................... 195
**М. Г. Гасанова, Ф. З. Сардарлы**
ГИПЕРУРИКЕМИЯ И ПОРАЖЕНИЕ ПОЧЕК У ЖЕНЩИН В ПЕРИОД МЕНОПАУЗЫ.................................................................. 201
**Süleymanova G.T., Abdullayeva N.A**
İNKİŞAFDAN QALMIŞ HAMİLƏLİYİ OLAN QADINLARIN BİOLOJİ MATERİALLARINDA HERPES SİMPLEX VİRUSUN TEZLİYİ.................................................................................................. 204
**Tağızadə R.K., Hacıyeva G.K.**
İMMUNFERMENT ANALİZİN MÜXTƏLİF VARİANTLARI İLƏ İMMUNKOMPROMETİV ŞƏXSLƏRİN ANKETLƏŞMƏ NƏTİCƏLƏRİNİN ƏLAQƏSİ............................................................ 207
**Гасымова З.В., Мусаева А.Б., Мохаммедианфард М.Г.**
АППАРАТ «STOMATON» В СТОМАТОЛОГИИ И ОРТОДОНТИИ.......................................................................... 209

**Гасымов О.Ф., Г.Б. Алиева**
БИОМЕХАНИЧЕСКИЕ АСПЕКТЫ ДИСТАЛЬНОГО ПЕРЕМЕЩЕНИЯ ЗУБОВ С ПРИМЕНЕНИЕМ МИКРОИМПЛАНТОВ И ЭЛАЙНЕРОВ........................................................................ 214
**Велиева В.А**
ВЛИЯНИЕ ТРЕТЬИХ МОЛЯРОВ НА СКУЧЕННОСТЬ ПЕРЕДНИХ ЗУБОВ НИЖНЕЙ ЧЕЛЮСТИ ПОСЛЕ ОКОНЧАНИЯ АКТИВНОГО ПЕРИОДА ОРТОДОНТИЧЕСКОГО ЛЕЧЕНИЯ.... 216
**Şadlinskaya R. V., Mahmudova N.M.**
DİŞ-ÇƏNƏ ANOMALİYA VƏ DEFORMASİYALARININ DİAQNOSTİKASINDA ORTODONTİK TİBBİ MÜAYİNƏ QEYDLƏRİNİN ƏHƏMİYYƏTİ........................................................ 219
**Mehmani İ.H, Əsgərzadə P.R.**
DİSTAL DİŞLƏMİN MÜALİCƏSİNDƏ ORTODONTİK İMPLANTLARIN İSTİFADƏSİ......................................................... 222
**Mehmani Vüsalə, Məmmədova Ləman,**
II SİNİF ANOMALİYALARININ ERKƏN MƏRHƏLƏDƏ PROFİLAKTİKASI VƏ MÜALİCƏ ÜSULLARININ EFFEKTİVLİYİ........ 225
**Расулова М.А.**
СУБЪЕКТИВНАЯ ОЦЕНКА ПАЦИЕНТОВ С ЗУБОЧЕЛЮСТНЫМИ АНОМАЛИЯМИ НА РЕЗУЛЬТАТЫ ОРТОДОНТИЧЕСКОГО ЛЕЧЕНИЯ......................................................................... 227
**Г.И Байрамова., М.А.Расулова**
ИЗМЕНЕНИЕ ЛИЦЕВОГО УГЛА ПРИ КОМПЛЕКСНОМ ОРТОДОНТИЧЕСКО- ОРТОПЕДИЧЕСКОМ ЛЕЧЕНИИ............. 229
**Гулиева С.К.**
ЛЕЧЕНИЕ ДЕТЕЙ С МЕЗИАЛЬНОЙ ОККЛЮЗИЕЙ ЗУБНЫХ РЯДОВ КОМБИНИРОВАННЫМИ ОРТОДОНТИЧЕСКИМИ АППАРАТАМИ......................................................................... 231
**Курбанова Д.Ф., Гасымова А.А.**
ХАРАКТЕРИСТИКА РЕПРОДУКТИВНОЙ ФУНКЦИИ У БЕРЕМЕННЫХ ПАЦИЕНТОК С ЦЕНТРАЛЬНЫМ ПРЕДЛЕЖАНИЕМ ПЛАЦЕНТЫ..................................................... 233
**Курбанова Д.Ф., Микаилзаде П.Н.**
КЛИНИЧЕСКАЯ И АНАМНЕСТИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА БЕРЕМЕННЫХ ЖЕНЩИН С ПОЛОЖИТЕЛЬНЫМ ТЕСТОМ COVID-19.......................................................................... 236
**Aravitska Mariia G., MD, Vasyl Stefanyk**
DETERMINING COMPLIANCE OF OBESE PATIENTS AS A BASIS FOR THE EFFECTIVENESS OF REHABILITATION INTERVENTION……………………………………………..... 238

**Donchenko S.V., Bilash S.M., Koptev M.M., Pirog-Zakaznikova A.V., Jha S.K., Mishra S.**
IMMUNOHISTOCHEMICAL CHANGES IN THE ADRENAL GLANDS OF WHITE RATS IN THE LATE STAGES OF THE EXPERIMENT……………………………………………………..…… 241
**Mamai O.V., Bilash S.M., Pronina O.M., Hrechka V.V., Mazur B.R..**
MORPHOLOGICAL CHARACTERIZATION OF THE AVERAGE INDICES OF THE SUBCAPSULAR PART OF THE SPLEEN TRABECULAE DURING ADMINISTRATION OF A COMPLEX OF CHEMICAL FOOD ADDITIVES AT THE EARLY STAGES OF EXPERIMENTAL STUDIES……………………………………… 246
**Oleksienko V.V., Pronina O.M., Grechka V.V.**
MORPHOLOGICAL CHANGES IN VESSELS OF RAT'S GUM UNDER THE ACTION OF A COMPLEX OF FOOD ADDITIVES… 249
**Oliinichenko Ya.O., Bilash S.M., Pronina O.M., Oliinichenko M.O., Suplichenko K.M., Sharma D.**
ASSESSMENT OF THE CHANGES IN MEAN DIAMETER OF ARTERIOLAR LUMEN OF THE SUBMUCOSA OF RATS' ILEUM AGAINST THE BACKGROUND OF MONOSODIUM GLUTAMATE, SODIUM NITRITE AND PONCEAU 4R ADMINISTRATION IN COMBINATION……………………………… 251
**L. S. Akimova**
CHANGES IN RENAL RESERVE WITHIN THE FRAMEWORK OF NEPHROPATHY FORMATION AT ESSENTIAL HYPERTENSION AND CHRONIC OBSTRUCTIVE PULMONARY DISEASE........................................................................................ 254
**Alypova O.E., Maramukha E.I.**
MODERN APPROACHES TO REHABILITATION IN PATIENTS WITH CHRONIC THORACALGIA IN THE CONDITIONS OF DEGENERATIVE-DYSTROPHIC DISEASE……………………….. 257
**Borovyk K., Kravchun P.G., Kadykova O., Ryndina N.**
FEATURES OF CARBOHYDRATE METABOLISM IN PATIENTS WITH CHRONIC HEART FAILURE ON THE BACKGROUND OF CORONARY ARTERY DISEASE, DEPENDING ON THE PRESENCE OF CONCOMITANT TYPE 2 DIABETES MELLITUS AND OBESITY……………………………………………………. 260
**Burdina Viktoriia Romanivna[1], Meibaliev Mammadali Talyat oglu[2] Danylchenko Svitlana Ivanivna[1]**
PHYSICAL REHABILITATION OF CHILDREN WITH AUTISM........................................................................................ 263

**O. M. Kiosov**
TREATMENT RESULTS EVALUATION OF THE PATIENTS WITH ESOPHAGEAL ACHALASIA USING LAPAROSCOPIC HELLER'S CARDIOMYOTOMY………………………………… 266
**[1]Pirog-Zakaznikova A.V., [2]Serbin S.I., [2]Dubyna S.O.**
MORPHOLOGICAL FEATURES OF VASCULARIZATION OF THE SUBLINGUAL VEGETATIVE NODE IN ELDERLY AND SENILE INDIVIDUALS…………………........................................ 269
**Finkova Maryna Vitaliivna,Holovchenko Ihor Valentynovych**
PHYSIOTHERAPY IN COMPREHENSIVE REHABILITATION AND PREVENTION OF PATIENTS WITH SCIATICA...................... 272
**Chorna I.O., Yaroshenko R.A., Panasenko S.I.**
DEVELOPMENT OF METHODS FOR BLOOD LOSS ASSESSMENT.......................................................................... 275
**Yashna P.O., Antonov V.S., Danylchenko S.I.**
THE USE OF VIRTUAL REALITY (VR) AND AUGMENTED REALITY (AR) IN MEDICINE: AN OVERVIEW OF CURRENT APPROACHES AND PERSPECTIVES…………………………….. 278
**[1]Hüseynov N.M., [2]Xudiyev A.M., [1]Əfəndiyev A.Z., [1]Quliyev M.D.**
POLİPOZ RİNOSİNUSİTLƏRİN DİAQNOSTİKASINDA XƏLBIR SÜMÜYÜ CİBLƏRİNİN KOMPUTER TOMOQRAFİYASININ ROLU.................................................................................................... 283
**Hacıyeva N.A**
UŞAQLARDA MƏNFI REZUS FAKTOR ILƏ ASSOSIASIYALI ANADANGƏLMƏ ÜRƏK QÜSURLARININ YAYILMASININ XÜSUSIYYƏTLƏRI…....................................................................... 285
**Сардарлы Ф, З., Бахтиярова Л.Б., Гасанова М.Г., Д жаббаров Ш.М., Эминбейли Х.Р.**
ОКСИД АЗОТА – КАК МАРКЕР ЭНДОТЕЛИАЛЬНОЙ ДИСФУНКЦИИ У БОЛЬНЫХ С САХАРНЫМ ДИАБЕТОМ 2 ТИПА НА ДОКЛИНИЧЕСКИХ СТАДИЯХ ДИАБЕТИЧЕСКОЙ НЕФРОПАТИИ……...........................................................………..... 289
**S.E Rəhimzadə , M.B.Niftəliyeva**
RADİKAL MASTEKTOMİYA OLUNAN XƏSTƏLƏRDƏ YARANAN YUXARI ƏTRAFLARININ LİMFOSTAZININ REABİLİTASİYASININ MÜALİCƏ TAKTİKASI............................ 292
**Isayev H.B., Əliyeva E.A., Abdullayev F.Ə.**
ÖD DAŞI MƏNŞƏƏLİ MEXANİKİ SARILIĞI OLAN MÜDAXİLƏDƏN ƏVVƏL VƏ SONRA QARACİYƏRİN MİKROSİRKULYASİYASININ DİNAMİKASINA N-ASETİLSİSTEİNİN TƏSİRİ............................................................... 294

**Isaev H.B.**
PERSPECTIVES ON DETERMINING THE ROLE OF GENE FACTORS AND GUT MICROBIOTA IN THE DEVELOPMENT OF GALLSTONE DISEAS.................................................................. 302
**Guliyeva Ilaha Ariz**
RISK FACTORS FOR VAGINAL WEAKNESS (VAGINAL LAXITY) IN WOMEN OF REPRODUCTIVE AGE........................... 304

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ ƏZİZ ƏLİYEV ADINA**
**AZƏRBAYCAN DÖVLƏT HƏKİMLƏRİ TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTU**

**ƏZİZ MƏMMƏDKƏRİM oğlu ƏLİYEVİN**
**DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ**
**ELMİ-PRAKTİKİ KONFRANSIN**
**M Ə C M U Ə S İ**

---

**Çapa imzalanıb: 06.01.2025**
**Həcmi: 19.75 ç.v.**
**Tirajı: 100 nüsxə**
"Baxtiyar-4" İKF-da ofset üsulu ilə çap olunmuşdur